***❒ Tarixin müxtəlif dövrlərində mükəmməl dövlətçilik təcrübəsi olan, son 70 ili başqa bir dövlətin tərkibində yaşamaq məcburiyyətində qalan, SSRİ-nin çökməsindən sonra dövlət müstəqilliyini bərpa edən Azərbaycan xalqına, şübhəsiz, bu azadlıq sevincini çox görən qüvvələr də var idi. Ona görə də bəzi dairələr gah ərazilərimizin işğalına, gah müstəqilliyimizin qarantı olan ulu öndər Heydər Əliyevin fiziki cəhətdən yox edilməsinə, gah da dövlət çevrilişinə cəhd edərək, müstəqilliyimizin əldən getməsinə çalışırdılar. Ancaq biz Heydər Əliyevin siyasi müdrikliyi, sarsılmaz iradəsi və xalqımızın qətiyyəti ilə həmin planların hamısının iflasa uğramasına nail olduq.***

# Mart hadisələri: Azərbaycan dövlətçiliyinin böyük qələbəsi

Milli dövlətçiliyimizin növbəti dəfə əldən getməsinə çalışanlar öz mənfur planlarından birini də 1995-ci il martın 13-dən etibarən həyata keçirməyə başlamışdılar. Dövlət başçımızın qətiyyətli addımları və xalqın onu elliklə dəstəkləməsi nəticəsində həmin çirkin oyun martın 17-də iflasa uğradı. İflasdan cəmi 5 gün sonra – martın 22-də toplaşan Azərbaycan Respublikası Milli Məclisi xaricdə hazırlanan və icrasına nəzarət edilən həmin hadisələrin ən incə məqamlarına qədər müzakirəsindən sonra müvafiq qərar qəbul etdi. Orada qeyd edilirdi ki, müstəqillik qazandıqdan sonra Azərbaycan xalqı çox əzab-əziyyətlə qarşılaşmış, torpaqlarının işğalçılardan azad edilməsi, ərazi bütövlüyünün təmin olunması uğrunda mübarizədə çoxlu qurbanlar vermiş, məhrumiyyətlərə düçar olmuş, çətinliklə qazandığı müstəqilliyin müdafiəsində mətanətlə dayanmışdır.

Lakin xalqın inamından istifadə edib hakimiyyəti ələ almış Azərbaycan Xalq Cəbhəsinin səriştəsiz, bacarıqsız və dayaz siyasəti bir tərəfdən ictimaiyyətin dərin etirazına səbəb olmuş, digər tərəfdən bu gün də həll edilməsi çətin olan çoxlu problem yaratmışdır. Bunun nəticəsində xaricdən dəstək alan mənfur qüvvələr vaxtaşırı fəallaşmış, siyasi hakimiyyəti qanunsuz yolla ələ almaq iddiasına düşmüşlər. Həmin qüvvələrlə üzləşən, ölkəni idarə etməkdə acizlik çəkən və xalqın inamını itirən AXC rəhbərliyi 1993-cü ilin iyununda hakimiyyətdən getməli oldu.

Belə vəziyyətdə dövlətçiliyinin itirilməsi təhlükəsi qarşısında qalmış Azərbaycan xalqı zəngin idarəetmə təcrübəsinə və siyasi nüfuza malik olan Heydər Əliyevin ölkə rəhbərliyinə qayıtmasını tələb etdi. Heydər Əliyev xalqın təkidi ilə rəhbərliyə qayıtdı və respublikada yaranmış son dərəcə gərgin vəziyyətin normallaşdırılması və sabitləşdirilməsi üçün sağlam qüvvələrin köməyi ilə qardaş qırğınının, Azərbaycan dövlətinin parçalanmasının qarşısını aldı, milli birliyə aparan siyasət xəttini həyata keçirməyə başladı, demokratik yolla, alternativ əsasla Azərbaycan Respublikasının dövlət başçısı -- prezidenti seçildi. Azərbaycan cəmiyyəti demokratik inkişaf yolunda bir addım da irəlilədi və möhkəmləndi.

Xalqın möhtəşəm iradəsi əsasında Azərbaycan Respublikası dünya birliyinin tamhüquqlu üzvü kimi ardıcıl daxili və xarici siyasət aparmağa başladı. Yüksək hərbi intizama və döyüş hazırlığına əsaslanan nizami ordunun yaradılmasına başlanıldı. Ordu quruculuğu üçün xüsusi əhəmiyyətə malik parlament nəzarətini, səlahiyyətlərin dəqiq bölgüsünü, Silahlı Qüvvələrin təyinatını, statusunu təsbit edən Azərbaycan Respublikası qanunları qəbul edildi.

1993-cü ilin axırlarında – 1994-cü ilin əvvəllərində erməni işğalçılarına qarşı mübarizədə ilk hərbi uğurlar qazanıldı. Mənfur daxili və onları dəstəkləyən xarici qüvvələrin təsirinə baxmayaraq geriləmənin qarşısı alındı. Cəmiyyət həyatının bütün sahələrində yeni münasibətlərə yol açmaq, islahatların əsaslarını yaratmaq üçün tədbirlər görüldü.

Azərbaycan Respublikasının müstəqillik zəminində ardıcıl, tarazlaşdırılmış xarici siyasəti nəticəsində dövlətimizin beynəlxalq nüfuzu daha da yüksəldi. Xarici dövlətlərin, iri maliyyə, biznes təşkilatlarının Azərbaycan Respublikası ilə bərabər əsaslarla, mənafelərin qarşılıqlı gözlənilməsi ilə əməkdaşlıq meyilləri gücləndi. 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici şirkətlər arasında "Əsrin müqaviləsi" imzalandı.

Həmin sazişin Azərbaycan cəmiyyətinin inkişafına, iqtisadiyyatın dirçəlməsinə, Azərbaycan Respublikasının beynəlxalq mövqeyinin möhkəmlənməsinə, xalqın vəziyyətinin yaxşılaşmasına, Ermənistan tərəfindən işğal edilmiş torpaqların azad olunmasına real təsirindən xoflanan cinayətkar ünsürlər, xarici hərbi-sənaye marağını güdən və Azərbaycanın müstəqilliyini öz çirkin məqsədlərinə qurban verməyə hazır olan, respublikamızı başqa dövlətlərin himayəsində görmək, hətta onu quberniyalara belə bölmək istəyən qüvvələr dərhal təşvişə düşdülər və məkrli planlar həyata keçirməyə başladılar. Xüsusilə ağır cinayətlər üstündə məhkəmə istintaqı altında olan sabiq müdafiə naziri Rəhim Qazıyevi, sabiq müdafiə nazirinin müavini Baba Nəzərlini, Əlikram Hümbətovu, Arif Paşayevi Milli Təhlükəsizlik Nazirliyinin istintaq təcridxanasından, ölüm cəzasına məhkum olunmuş digər şəxsləri həbsxanadan qaçırdılar, yüksək dövlət vəzifəli şəxslər barədə terror aktları həyata keçirdilər. Cəmiyyətdə gərginliyə nail olduqdan sonra Azərbaycan dövlətçiliyinə daha ağır zərbə vurmaqla, qanunsuz yolla zorakılıq tətbiq etməklə, xalqın iradəsinə zidd surətdə siyasi hakimiyyəti ələ keçirməyə cəhd göstərdilər.

Bununla yanaşı, Rövşən Cavadov qardaşı, Bakı şəhəri Xətai rayonunun sabiq prokuroru Mahir Cavadovla birlikdə tabeliyində olan xüsusi təyinatlı polis dəstəsinin (XTPD) şəxsi heyətini, döyüş texnikasını və bazasını nəzarətində saxlayaraq onlardan qeyri-qanuni surətdə istifadə edib, tamahkar niyyətlərini həyata keçirməkdə vasitəyə çevirirdilər. Bütün bunlar dövlət orqanlarının normal işini pozur, onların nüfuzuna xələl gətirir, əhalini qorxuya salırdı. Həmin qüvvələr birləşərək hakimiyyətə qarşı sui-qəsd törətməyə, qanuni hakimiyyəti sarsıtmağa və devirməyə çalışırdılar. Dövlət rəhbərliyinin milli birlik, vəziyyətin nizamlanması üçün atdığı addımlar, gördüyü tədbirlər, həmin qüvvələri müəyyən qədər cilovlasa da, onlar əvvəlcədən düşünülmüş məkrli planlarından əl çəkə bilmədilər.

Ümummilli lider Heydər Əliyev yaranmış vəziyyətin ciddiliyini nəzərə alaraq, 1995-ci il martın 15-də televiziya və radio ilə xalqa müraciət etdi: "Mən bütün Azərbaycan xalqını milli birliyə, milli həmrəyliyə dəvət edirəm. Əminəm ki, mənim səsimə milyonlarla adam səs verəcəkdir. Mən əminəm ki, xalq Azərbaycan dövlətçiliyini, Azərbaycan Prezidentini müdafiə edəcəkdir". Bu, doğrudan da belə oldu. Böyük rəhbərin çağırışı milyonlarla azərbaycanlının ayağa qalxmasına səbəb oldu və xalqın möhtəşəm dəstəyi ilə milli dövlətçiliyimiz xilas edildi.

Bu, tarixi faktdır ki, 1995-ci ilin mart hadisələri milli dövlətçiliyimiz üçün ciddi təhlükə idi. Ona görə də həmin günlərdə dünyanın aparıcı ölkələri çox ciddi narahatlıq ifadə olunan bəyanatlarla çıxış edirdilər. Həmin bəyanatlardan bir neçəsinə diqqət çəkmək istərdik.

Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin 16 mart 1995-ci il tarixli bəyanatında Cavadov qardaşlarının törətdiyi əməllərdən narahatlıq ifadə olunur və deyilirdi: "Bu hadisələr regiondakı sülh və sabitliyə təhlükə yaradır. Biz bu böhrana cəlb olunmuş bütün tərəflərə müraciət edib onları təmkinli olmağa və vəziyyəti sülh yolu ilə həll etməyə çağırırıq".

Başqa bir bəyanata diqqət yetirək. Rusiya Federasiyası Dövlət Dumasının bir qrup deputatının 1995-ci il martın 16-da Azərbaycanda yaşanan mart hadisələri ilə bağlı bəyanatında deyilirdi: "Qanuni yolla seçilmiş prezidentin və parlamentin yeritdiyi siyasi xətt təhlükə qarşısındadır... Azərbaycan Respublikasındakı hadisələr nəinki Qarabağ probleminin həlli, qeyri-insani şəraitdə yaşayan bir milyondan artıq qaçqın və köçkünün taleyi üçün ən mənfi nəticələr verə bilər, həm də Rusiya ilə Azərbaycan arasındakı siyasi və iqtisadi əlaqələrə və bütövlükdə regionun taleyinə təsir göstərər… Təmsil etdiyimiz parlamentin adından Azərbaycan rəhbərliyinin fəaliyyətini tam dəstəkləyirik".

Azərbaycana məktub ünvanlayan Türkiyə Prezidenti Süleyman Dəmirəl yazırdı: "Azərbaycanda həftənin əvvəlindən bəri sabitliyin pozulmasına yönəlmiş cəhdlərin martın 17-- də qarşısının alınması xəbərindən məmnun oldum. Bu böhrandan qardaş qanı axıdılmasına yol verilmədən çıxılması ən böyük diləyimiz idi".

Azərbaycanda yaşanan mart hadisələrinin beynəlxalq aləmdəki əks-sədası barədə daha geniş təsəvvür yaratmaq üçün ən mötəbər mənbə həmin il martın 17-də Prezident Heydər Əliyevin yanında keçirilmiş müşavirənin materialları idi. Müşavirədə geniş çıxış edən ulu öndər demişdi: "Mən hesab edirəm ki, bu gün biz irəliyə daha inamla, nikbinliklə baxa bilərik. Qarşımızdakı planların həyata keçirilməsi üçün daha sərbəst fəaliyyət göstərə bilərik və əminəm ki, bizim gələcəyə doğru yolumuz uğurlu olacaqdır".

Bəli, bizim gələcəyə doğru uzanan yolumuz uğurlu oldu və bu gün dünya ictimaiyyəti bizim möhtəşəm nailiyyətlərimizi səmimi şəkildə, səxavətlə və ürək açıqlığı ilə etiraf edir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***